

# GƏNCƏ: SOSİAL-İQTİSADİ UĞURLAR ZƏNGİNDİR

**2016-cı ilin birinci yarısının yekunları ilə bağlı Gəncə Şəhər İcra Hakimiyyəti başçısının geniş hesabat iclası keçirilmişdir. Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev geniş hesabat məruzəsi ilə çıxış edərək bildirdi ki, Şəhər İcra Hakimiyyəti ölkə Prezidenti cənab İlham Əliyevin siyasi kursunu gündəlik fəaliyyətinin ana xətti kimi əsas götürərək, şəhərin sosial-iqtisadi həyatının davamlı inkişafının təmin edilməsi istiqamətində əməli işlər görür, təşkilati tədbirlər həyata keçirir. Hər il olduğu kimi, bu ilin birinci yarısında da şəhərin sosial-iqtisadi inkişafını əks etdirən makroiqtisadi göstəricilərin yerinə yetirilməsi təmin edilmişdir.**





2016-cı ilin yanvar-iyun aylarında şəhərdə 357,4 milyon manat ümumi daxili məhsul buraxılmışdır. Bu, əvvəlki ilin müvafiq 6 ayı ilə müqayisədə 10,8 faiz və ya müqayisəli qiymətlərlə 34,9 milyon manat artıqdır. Əhalinin hər bir nəfərinə düşən ümumi məhsulun həcmi 2015-ci ilin birinci yarısına nisbətən 16,5 faiz artaraq 1143 manat səviyyəsində olmuşdur. Ümumi daxili məhsulun həcminin 74,8 faizi qeyri-dövlət bölməsində istehsal edilməklə, ötən ilin birinci yarısı ilə müqayisədə 11,6 faiz artmışdır.

2016-cı ilin 6 ayında ümumi məhsulun 41,7 faizi sənaye, 0,2 faizi kənd təsərrüfatı, 11,7 faizi tikinti, 6,7 faizi nəqliyyat, 0,6 faizi informasiya və rabitə, 39,1 faizi ticarət və xidmət sahələrinin payına düşmüşdür.

2016-cı ilin birinci yarısında şəhər sənayesində 157 milyon 438 min manatlıq sənaye məhsulu istehsal olunmuş və xidmətlər göstərilmişdir. Bu dövrdə özəl bölmədə istehsalın həcmi sənaye məhsulunun 59,3 faizini təşkil etmiş, ümumi istehsalın 93,0 faizi sənaye mallarının istehsalı, 7,0 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaranmışdır. Özəl sektorda ümumi daxili məhsul buraxılışının xüsusi çəkisi 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz artaraq 74,8 faizədək yüksəlmişdir

Sənaye məhsulunun 93,0 faizi emal, 5,6 faizi elektrik enerjisi, qaz, buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,4 faizi isə su təchizatı, çirkli suların və tullantıların təmizlənməsi bölmələrində istehsal olunmuşdur. Sənayedə istehsal olunan məhsulun 93,0 faizini və ya 146 milyon 417 min manatını emal sənayesi təşkil etmişdir. İstehsalın və göstərilən xidmətlərin 59,3 faizi bilavasitə qeyri-dövlət sahibkarlıq subyektləri və ev təsərrüfatları tərəfindən həyata keçirilmişdir. Emal sənayesində, kompüter, elektron və optik məhsulları, qida məhsulları, un və un məmulatları, tikinti materialları, toxuculuq, kağız və karton, mebel, nəzarət ölçü cihazları, maşın və avadanlıqlardan başqa hazır metal məmulatları, avtomobil, qoşqu və yarımqoşquların istehsalı, maşın və avadanlıqların quraşdırılması və təmiri bölmələrində və metallurgiya sənayesində artım müşahidə olunmuşdur. Emal sənayesinin strukturunda metallurgiya sənayesi (44,4 %) və avtomobil, qoşqu və yarımqoşquların istehsalı (32,7 %) aparıcı yer tutur. Hesabat dövrü ərzində elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava və təchizat bölməsində 7,5 faiz artım əldə edilmişdir, istehlakçılara 152 milyon 614 min manatlıq və ya bütövlükdə sənaye istehsalının 96,9 faizi qədər məhsul göndərilmiş, xidmətlər göstərilmişdir. İstehsal olunan məhsulun 57,0 faizi respublika daxilində, 43,0 faizi Rusiya, Türkiyə, Ukrayna və digər ölkələrə ixrac olunmuşdur. 2016-cı ilin birinci yarısında sənaye müəssisələrinin anbarlarında əvvəlki illərdən qalan qalıqlar da nəzərə alınmaqla, hazır məhsul ehtiyatı 17 milyon 723 min manat olmuşdur. Hazır məhsul ehtiyatlarının 87,2 faizi "DET.AL Alüminium" MMC-nin, 1,8 faizi "MKT İstehsalat Kommersiya" MMC-nin "Gəncə Tekstil" filialının, 3,0 faizi "Gəncə Əlvan Metal Emalı" ASC-nin, 2,5 faizi "SEMPA" QSC-nin və 5,5 faizi isə digər sənaye müəssisələrinin anbarlarında toplanmışdır. Şəhər iqtisadiyyatında mühüm rol oynayan "DET.AL Alüminium" MMC-nin Gəncə Alüminium zavodunda və "Gəncə Avtomobil zavodu" İstehsalat Birliyində 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə müvafiq olaraq istehsalın həcmi 48,0 faiz və 32,3 faiz artmışdır. Bu müəssisələr tərəfindən əlavə olaraq 40,6 milyon manatdan çox məhsul istehsal olunmuşdur.

Şəhərin iqtisadi və sosial sahələrinin inkişafına bütün maliyyə mənbələri hesabına 2016-cı ilin birinci yarısında əsas kapitala 49 milyon 771 min manatlıq vəsait investisiya qoyulmuşdur. Bu sərmayənin 88,4 faizi və ya 44,3 milyon manatı tikinti-quraşdırma işlərinə sərf edilmişdir. İstehsal obyektlərinin inşasına 1 milyon 200 min manat, xidmət sahələri üzrə obyektlərin tikintisinə isə 46 milyon 256,6 min manatlıq vəsait yönəldilmişdir. Ümumi sərmayənin 31,7 faizi dövlət, 68,3 faizi isə qeyri-dövlət müəssisələrinin payına düşmüşdür. Hesabat dövründə şəhər tikinti müəssisələri tərəfindən 17 milyon 801 min manatlıq inşaat işləri yerinə yetirilmişdir. Bu işlərin 2,8 faizini dövlət, 97,2 faizini qeyri-dövlət mülkiyyətində olan tikinti müəssisələri həyata keçirmişlər. 2015-ci ilin birinci yarısı ilə müqayisədə yerinə yetirilmiş tikinti işlərinin həcmi 1,4 dəfə artmışdır. 2016-cı ilin birinci yarısı ilə müqayisədə şəhərdə əhalinin şəxsi vəsaiti hesabına ümumi sahəsi 16 min 543 kv.metr yaşayış evləri tikilib istifadəyə verilmişdir. Bu, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 8 min 412 kv.metr və ya 2 dəfə çoxdur.

Ölkə Prezidentinin Gəncəyə son səfəri zamanı istifadəyə verilmiş "Gəncəçay" park-bulvar kompleksinin sol sahilində sahil-bərkitmə və parksalma işlərinin davam etdirilməsi üçün məqsədyönlü işlər aparılır. Burada Qafqazın ən böyük, 5000-ə yaxın əyani, 20 minə yaxın elektron kitab bazası olan "Kitab evi" Gəncə ziyalılarının istifadəsinə verilmişdir. Gəncə Dövlət Filarmoniyasının və Gəncə Dövlət Dram Teatrının yeni binasının inşası davam etdirilir. Dövlət başçısının sərəncamı ilə Filarmoniyanın tikintisinin davam etdirilməsi məqsədi ilə 5,0 (beş) milyon manat vəsait ayrılmışdır. Atatürk prospektində 264 və 266 ünvanda inşa edilən 50 mənzilli beşmərtəbəli yaşayış binasının, həmçinin bu prospektdə 4 ədəd yeddimərtəbəli, 2 ədəd beşmərtəbəli yaşayış binasının inşası davam etdirilir. Nizami prospekti ilə Kimyaçılar küçəsinin kəsişməsində, 0,5 hektar torpaq sahəsində keçmiş Toxuculuq Kombinatının yataqxanalarında yaşayanlar üçün 3 ədəd 3 bloklu doqquzmərtəbəli bina, 1 ədəd, 1 bloklu onmərtəbəli bina, ümumilikdə 249 mənzilli çoxmərtəbəli yaşayış binalarının tikintisi sürətləndirilmişdir. Cavad xan küçəsi, 34 ünvanda və Hacıkənd qəsəbəsində uyğun olaraq hər biri yeddimərtəbəli olan mehmanxanaların inşası Ş.İ.Xətai prospekti ilə V.Xuluflu küçəsinin kəsişməsində Gəncə Şəhər Prokurorluğunun müasir tələblərə cavab verən yeni inzibati binasının tikintisi davam etdirilir, cari ildə istifadəyə verilməsi nəzərdə tutulur. Eyni zamanda Gəncə-Şəmkir avtomobil yolunun sağ tərəfində 4,75 hektar torpaq sahəsində Məhkəmə Kompleksinin tikintisinin layihə-smeta sənədi hazırlanır. Fikrət Əmirov küçəsində beşmərtəbəli İctimai-Mədəni Tibb Mərkəzinin, Hava limanı yolu istiqamətində maşın bazarının, Nizami prospektində beş və altımərtəbəli Ticarət Mərkəzinin, eləcə də digər sosial-mədəni və xidmət obyektlərinin inşası davam etdirilir.

2016-cı ilin 6 ayı ərzində də şəhərin yol-nəqliyyat infrastrukturunun müasir tələblərə uyğun əsaslı təmiri və yenidən qurulması işləri davam etdirilmişdir. Şəhərin müxtəlif ərazilərində ümumilikdə küçə və səkilərə müvafiq olaraq 62 min 72 kv.metr və 26 min 848 kv.metr asfalt örtüyü salınmış, 11 min 63 p/metr səki daşları, o cümlədən Fikrət Əmirov küçəsində 2 min 726 p/metr, Bağmanlar küçəsində 2 min 750 p/metr, Heydər Əliyev park-kompleksində 3 min 850 p/metr, Ə.Əliyev küçəsində 1 min 737 p/metr beton, mozaika, qranit bort daşları düzülmüş və təmir edilmişdir. V.Xuluflu, A.Səhhət, Yeni Gəncə yaşayış massivində çoxmənzilli binalarda 50-yə yaxın lift əsaslı təmir və yenisi ilə əvəz edilərək işlək vəziyyətə gətirilmişdir.



2016-cı ilin birinci yarısında ümumi daxili məhsulun strukturu, faizlə

Hesabat dövrünün 6 ayı ərzində şəhərin müxtəlif ünvanlarında yerləşən D.Qorqud, Ə.Cəmil, N.Gəncəvi, F.Əliyev, Ozan, A.Ziyadxanov küçələrində və Heydər Əliyev prospektində yerləşən cəmi 18 ictimai yaşayış binası əsaslı təmir edilərək sakinlərin istifadəsinə verilmişdir.

Nəqliyyat, rabitə və informasiya xidməti təsərrüfat subyektlərinin fəaliyyəti şəhər icra hakimiyyətinin daim diqqət mərkəzində saxlanılmaqla avtomobil yollarının yenidən qurulması, genişləndirilməsi, təmir və bərpası istiqamətində cari ilin əvvəlində də müvafiq işlər davam etdirilmişdir. 2015-ci ildə tikintisinə başlanılmış Zazalı - "İmamzadə" kompleksi Gəncə avtomobil yolunun inşası davam etdirilir.

Dövlət başçısı cənab İlham Əliyev cari ilin 25 yanvar tarixində "Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Fərman imzalamışdır. Sərəncamla Gəncə Şəhər İcra Hakimiyyəti yanında Gəncə Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi yaradılıb. Fərmana əsasən Gəncə şəhərinin inzibati ərazisində sərnişin daşınmasının inkişaf etdirilməsi, sərnişin daşıyan avtomobil nəqliyyatı subyektləri tərəfindən Azərbaycan Respublikasının normativ hüquqi aktlarına riayət olunmasına nəzarət edilməsi, avtomobil nəqliyyatı ilə sərnişin daşınmasının təşkili və bu sahədə dövlət sifarişinin formalaşdırılması, avtomobil nəqliyyatı ilə sərnişindaşımanın vahid norma və qaydalar əsasında təhlükəsiz yerinə yetirilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş qaydada tədbirlər görülməsi Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən həyata keçirilir. "İVA" MMC-nin 2014-cü il tarixdən inşa etdirdiyi Beynəlxalq Avtovağzalın tikintisi davam etdirilir, hazırda burada asfalt-beton işlərinin tökülməsinə hazırlıq işlərinə başlanılmış, eyni zamanda da ətrafın abadlaşdırılması ilə əlaqədar işlər aparılır. 2016-cı ilin sonuna kimi Avtovağzal Kompleksinin istismara verilməsi nəzərdə tutulur.

Şəhər rabitəçiləri tərəfindən şəhərimizdə fasiləsiz, keyfiyyətli, müasir texnologiyaların tətbiqi ilə beynəlxalq standartlara uyğun telefon, internet və poçt rabitəsinə artan tələbatın ödənilməsi sahəsində əməli tədbirlər həyata keçirilməkdədir. 2016-cı ilin yanvar-iyun aylarında informasiya və rabitə müəssisələri tərəfindən müəssisə və təşkilatlara, əhaliyə 2 milyon 315 min manatlıq yaxud keçən ilin eyni dövrünün səviyyəsindən 6,5 faiz çox xidmət göstərilmişdir. Göstərilən xidmət 2 milyon 237 min manatı və ya 96,6 faizi dövlət, 78 min manatı və ya 3,4 faizi isə qeyri-dövlət bölməsində yaranmışdır. Hesabat dövrü ərzində yeni 927 ədəd telefon çəkilmiş və əsas telefon aparatlarının sayı 56 min 498 nömrəyə çatmışdır. Bu, ümumi montaj tutumunun 63,6 faizini təşkil edir.

Gəncə Regional Poçt filialının xidmət növlərinin genişləndirilməsi, xüsusən də qeyri-ənənəvi xidmətlərin tətbiqi nəticəsində 2016-cı ilin birinci yarısında poçtun tarif gəliri 451 min 860 manat proqnoza qarşı faktiki olaraq 510 min 30 manat olmaqla nəzərdə tutulan proqnoza 113,0 faiz əməl edilməklə 58 min 170 manat əlavə gəlir əldə edilmişdir. "Elektron Hökumət" layihəsinin bir hissəsi olan "Elektron imza" xidmətinin təşkilindən sonra 01 iyul 2016-cı il tarixə 856 elektron imza açılmış, "Elektron hökumət" portalından istifadə edənlərin sayı 1 min 854 nəfərə çatmışdır. Həyata keçirilmiş sosial siyasət nəticəsində 2016-cı ilin 6 ayında da əhalinin rifahının yüksəldilməsinə, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən çoxsaylı tədbirlər reallaşdırılmışdır. 2016-cı ilin birinci yarısında şəhər əhalisinin gəlirləri 2015-ci ilin birinci yarısı ilə müqayisədə 6,4 faiz artaraq 630 milyon 157 min manata çatmış, onun hər nəfərə düşən həcmi isə 5,9 faiz artaraq 1 min 907 manat və ya ayda orta hesabla 317,8 manat təşkil etmişdir.

2016-cı ilin iyulun 1-i vəziyyətinə görə şəhərdə iqtisadi fəal əhalinin sayı 175 min 900 nəfər olmuş, onlardan 166 min 700 nəfərini iqtisadiyyatın və sosial bölmənin müxtəlif sahələrində məşğul olan əhali təşkil etmişdir. Dövlət proqramlarının icrası nəticəsində 2009-2013-cü illərdə və 2014-2015-ci illərdə şəhərdə 26 min 395 yeni, o cümlədən 23 min 282 daimi iş yeri açılmışdır. 2016-cı ilin birinci yarısında isə 2 min 503 daimi iş yeri olmaqla, 2 min 803 yeni iş yeri yaradılmışdır. Bu illər ərzində cəmi 29 min 198 iş yeri, o cümlədən 25 min 785 daimi yeni iş yeri yaradılmışdır. Enerji təchizatı müəssisələri elektrik şəbəkəsinin etibarlılığının və səmərəliliyinin artırılması tədbirlərinin həyata keçirilməsi sahəsində bu ilin əvvəlindən də bir sıra mühüm işlər görmüşlər. Yenidənqurma işlərinin davamı olaraq 2016-cı ilin 6 ayı ərzində 10/6 kV-luq 119 ədəd yeni dəmir-betondan dayaq, 0,4 kV-luq alçaqgərginlikli elektrik şəbəkəsində 414 ədəd metal boru dayaq quraşdırılmış, 9,6 kilometr uzunluğunda 10 və 6 kV-luq, 1,5 metr uzunluğunda 0,4 kV-luq yeni kabel çəkilmiş, 5,8 kilometr uzunluğunda yeni müasir tipli özüdaşıyan izolyasiyalı naqil "SİP" və kooksial kabel xətti yeni dayaqlara köçürülmüş və yeni "SİP" xətti çəkilmişdir.

Son illər şəhərimizdə əhalinin təbii qaza olan tələbatının təmin edilməsi istiqamətində Gəncə Qaz İstismarı Sahəsi vacib tədbirlər həyata keçirmiş, qaz infrastrukturunun yenidən qurulmasında xeyli irəliləyişlər baş vermişdir. İlin əvvəlindən də bu işlərin davamı olaraq qaz şəbəkələrinin yenidən qurulması, mövcud qaz xətlərinin, avadanlıqlarının mühafizəsi, əsaslı təmiri və bərpası sahəsində əməli tədbirlər davam etdirilməkdədir. Şəhərin qaz kəməri şəbəkəsində yenidənqurma işləri davam etdirilərək Təbriz küçəsində 200 mm-lik polietilen qaz xətti istismara verilmiş, məişət istehlakçılarına verilən qazın təzyiq rejimlərinin nizamlanması məqsədi ilə qidalandırıcı qaz xətlərində qaz tənzimləyici şkaflar quraşdırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzaqgörən siyasəti sosial həyatımızın bütün sahələrinin, o cümlədən təhsil, səhiyyə, mədəniyyət və idmanın davamlı inkişafına güclü təkan vermişdir. Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın məqsədyönlü fəaliyyəti ölkənin ictimai-siyasi, sosial və mədəni həyatında olduqca mühüm əhəmiyyətə malikdir. Hesabat dövründə Mir Cəlal Paşayev adına 39 nömrəli tam orta məktəbdə yeni inşa edilmiş 1 min 200 şagird yerlik əlavə tədris korpusu istifadəyə verilmişdir. 250 şagird yerlik Sanatoriya Tipli İnternat məktəbinin tədris korpusunun və yataqxanasının, həmçinin 2 min 140 şagird yerlik 1 nömrəli, 840 şagird yerlik 14 nömrəli, 640 şagird yerlik 41 nömrəli və 1 min 76 şagird yerlik 44 nömrəli, ümumi sayı 4 min 946 şagird yerlik tam orta məktəblərdə əsaslı təmir işləri, 1 nömrəli və 2 nömrəli Peşə liseylərində, həmçinin 1 nömrəli Peşə məktəbində əsaslı təmir işləri, 2 nömrəli Peşə məktəbində isə 280 şagird yerlik yeni tədris binasının inşası davam etdirilir.

Hesabat dövründə A.Səhhət adına 1 nömrəli şəhər xəstəxanasının fəaliyyətə başlaması ilə şəhər sakinlərin yüksək səviyyəli səhiyyə xidmətindən istifadəsinə geniş imkanlar yaranmışdır. Fəaliyyəti 2010-cu ildən dayandırılmış 1 saylı Doğum evi A.Səhhət adına 1 saylı şəhər xəstəxanasının doğum şöbəsi kimi yenidən fəaliyyətə başlamışdır. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq Bayan küçəsi, 147 ünvanda Psixiatriya xəstəxanası üçün yeni müasir tələblərə uyğun 2 korpus və yardımçı binaların inşası, eyni zamanda 3 saylı Uşaq poliklinikasında təmir işləri davam etdirilir.

Şəhərin tarix-memarlıq abidələrindən olan "Şah Abbas" və "Uğurlu xan" karvansaralarının, "Qızıl Hacılı" tarix-memarlıq abidəsinin əsaslı təmir və bərpası, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair və tanınmış maarifçi Mirzə Şəfi Vazehin muzeyinin yaradılması istiqamətində işlər davam etdirilir. "Xəmsə Park" ticarət mərkəzində 461 yerdən və 5 zaldan ibarət olan "Cinema Plus Xəmsə" kinoteatrı istifadəyə verilmişdir. Hesabat dövrü ərzində ənənəvi olaraq şəhərimizin tarixi abidələrinə, Heydər Əliyev Park-Kompleksinə, yeni yaradılmış "Gəncəçay" park-bulvar kompleksinə, "Gəncə Avropa Gənclər Paytaxtı 2016" parkına, Məhsəti Gəncəvi Mərkəzinə, Nizami Gəncəvi Muzeyinə, Qala Qapıları Arxeologiya və Etnoqrafiya Abidə Muzeyi Kompleksinə, eləcə də digər muzey müəssisələrinə, şəhərin görməli yerlərinə 15 mindən çox yerli və əcnəbi qonaqların iştirakı ilə ekskursiyalar təşkil olunmuşdur.

Bütün bunlar möhtərəm Prezident cənab İlham Əliyevin diqqət və qayğısının nəticəsidir. Biz bundan sonra da ümummilli liderimiz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, möhtərəm Prezident cənab İlham Əliyevin qarşımıza qoyduğu vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışacaq, dövlətimizin möhkəmləndirilməsi, iqtisadiyyatımızın gücləndirilməsi istiqamətində bütün qüvvəmizi sərf edəcəyik.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

**2016-cı ilin yanvar-iyun aylarında şəhərdə 357,4 milyon manat ümumi daxili məhsul buraxılmışdır. Bu, əvvəlki ilin müvafiq 6 ayı ilə müqayisədə 10,8 faiz və ya müqayisəli qiymətlərlə 34,9 milyon manat artıqdır.**

**Dövlət başçısı cənab İlham Əliyev cari ilin 25 yanvar tarixində "Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Fərman imzalamışdır. Sərəncamla Gəncə Şəhər İcra Hakimiyyəti yanında Gəncə Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi yaradılıb.**